# Şuşada "Şuşanın səsi - Azərbaycanın səsi" adlı konfrans olub



Azərbaycan Milli Konservatoriyasının muğam (xanəndə) kafedrası, konservatoriyanın nəzdində "Səsin tədqiqi" elmi laboratoriyası və "Azerbaijan Voice Orqanization LLC"nin birgə layihəsi ilə Ümumdünya Səs Gününə və Şuşa şəhərinin 2024-cü il üzrə İslam Əməkdaşlıq Təşkilatının (İƏT) Gənclər paytaxtı seçilməsinə həsr olunmuş "Şuşanın səsi - Azərbaycanın səsi 2" mövzusunda "dəyirmi masa" və elmi-praktik konfrans keçirilib.

Konservatoriyadan bildirilib ki, Şuşa şəhərində keçirilən konfransda Dövlət himni səsləndirilib, Vətən müharibəsində şəhid olanların xatirəsi birdəqiqəlik sükutla anılıb.

Tədbirdə Azərbaycan Milli Konservatoriyasının prorektoru, Əməkdar incəsənət xadimi, professor Lalə Hüseynovanın "Bülbülün elmi irsində Azərbaycanda oxuma sənəti və məktəbi haqqında" mövzusunda məruzəsi dinlənilib.

Sonra muğam (xanəndə) kafedrasının müdiri, Xalq artisti Mənsum İbrahimovun "Müasir dövrdə xanəndə sənətinin tədrisinə dair", "Səsin tədqiqi" elmi laboratoriyasının rəhbəri Aleksandriya Sultan fon Brüseldorffun "Azərbaycan muğam ifaçılarının sağlamlığı və rifahı" mövzularında məruzələri təqdim olunub.

---

Azərbaycan.- 2024.- 10 aprel, № 74.- S.15.